**UOT 94(479.24)**
https://doi.org/10.59849/2218-4783.2026.2.60

# III-XII ƏSRLƏRDƏ NAXÇIVANIN KƏND TƏSƏRRÜFATI

# AGRICULTURE IN NAKHCHIVAN IN THE 3RD-12TH CENTURIES

**Sara HACIYEVA***

**XÜLASƏ**

Məqalədə Naxçıvan ərazisində III-XII əsrlər dövrünə aid kənd təsərrüfatı, xüsusilə əkinçilik və maldarlığın inkişaf tarixi, arxeoloji tapıntılar və yazılı mənbələr əsasında araşdırılmışdır; aparılan tədqiqatlar göstərir ki, Culfa, Şahbuz və digər bölgələrdə aşkar edilmiş dən daşları, kirkirələr və digər əmək alətləri əhalinin taxılçılıqla məşğul olduğunu və məhsulun emalı üçün səmərəli texnologiyaların tətbiq olunduğunu nümayiş etdirir. Bu alətlərin Eneolit dövründən formalaşması və III-XII əsrlərdə istifadəsinin davam etməsi bölgədə oturaq həyat tərzinin möhkəmləndiyini, kənd təsərrüfatı mədəniyyətinin yüksək səviyyədə inkişaf etdiyini sübut edir; eyni zamanda yazılı mənbələr və səyahətnamələr göstərir ki, bu alətlər yalnız Naxçıvanda deyil, ümumilikdə Cənubi Qafqaz və Yaxın Şərqdə də yayılmışdır ki, bu da təsərrüfat təcrübəsinin regional səciyyə daşıdığını və iqtisadi-mədəni əlaqələrin inkişafını təsdiqləyir. Aparılan araşdırmalar həmçinin maldarlığın region üçün əhəmiyyətini, kənd təsərrüfatı məhsullarının sosial-iqtisadi həyatda oynadığı rolu və təsərrüfatın davamlı xarakter daşıdığını ortaya qoyur; nəticədə Naxçıvan ərazisi həm tarixi, həm də mədəni baxımdan Cənubi Qafqazın inkişaf etmiş kənd təsərrüfatı mərkəzlərindən biri kimi qiymətləndirilə bilər.

**Açar sözlər:** *Naxçıvan, kənd təsərrüfatı, III-XII əsrlər, əkinçilik, maldarlıq, arxeoloji tapıntılar, taxılçılıq, əmək alətləri, kirkirə, dən daşları, regional təsərrüfat mədəniyyəti.*

**ABSTRACT**

This study examines the development of agriculture in the Nakhchivan region between the 3rd and 12th centuries, with a particular focus on crop cultivation and animal husbandry, based on archaeological evidence and written sources. Excavations in Culfa, Shahbuz, and other areas have revealed grinding stones, kirkira (a type of grinding implement), and other agricultural tools, suggesting that the population was engaged in grain production and employed effective processing techniques. The emergence of these tools in the Eneolithic period and their continued use through the 3rd-12th centuries point to the consolidation of a sedentary lifestyle and the development of well-established agrarian practices. Written sources and travel accounts further indicate that such tools were widespread not only in Nakhchivan but also across the South Caucasus and the Near East, reflecting the regional character of agricultural practices and the existence of broader economic and cultural interactions. The study also highlights the importance of animal husbandry, the socio-economic role of agricultural production, and the continuity of agrarian activities. Overall, Nakhchivan can be considered a significant agricultural center in the historical and cultural landscape of the South Caucasus.

**Keywords:** *Nakhchivan, agriculture, 3rd-12th centuries, crop farming, animal husbandry, archaeological findings, grain cultivation, labor tools, kirkira, grinding stones, regional agricultural culture.*

## GİRİŞ

Arxeoloji araşdırmaların nəticələri göstərir ki, Naxçıvan ərazisi eramızdan əvvəl VI-I minilliklərdən etibarən Azərbaycanın ən qədim əkinçilik mədəniyyəti mərkəzlərindən biri kimi formalaşmışdır. Bölgənin əlverişli təbii-coğrafi şəraiti – münbit torpaqlar, daimi su mənbələri və iqlim xüsusiyyətləri burada əkinçilik təsərrüfatının erkən dövrlərdən inkişafına imkan yaratmışdır. Naxçıvan ərazisində yerləşən qədim yaşayış yerlərində aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmiş dən daşları,

*AMEA Naxçıvan Bölməsi, Naxçıvan Müəllimlər İnstitutu, e-mail: hacyevasara@yahoo.com
ORCİD: 0009-0009-4025-3110

oraq dişləri, gil anbar qabları və yanmış taxıl qalıqları bu bölgədə oturaq əkinçilik həyat tərzinin geniş yayıldığını sübut edir. Bu maddi-mədəniyyət nümunələri əhalinin torpaqdan sistemli şəkildə istifadə etdiyini, əsasən buğda, arpa və darı kimi dənli bitkilərin becərildiyini göstərir [Bünyadov, 1964: 22].

III-XII əsrlərdə Naxçıvanda kənd təsərrüfatı bölgənin iqtisadi həyatının əsasını təşkil etmişdir. Erkən orta əsrlər dövründə əkinçilik əhalinin ərzaq tələbatını ödəməklə yanaşı, ictimai-iqtisadi münasibətlərin formalaşmasında da mühüm rol oynamışdır. Torpaq becərilməsi kənd icmalarının təşəkkül tapmasına, əmək bölgüsünün dərinləşməsinə və istehsal münasibətlərinin sabitləşməsinə şərait yaratmışdır. Arxeoloji materiallar və yazılı mənbələrin dolayı məlumatları göstərir ki, bu dövrdə Naxçıvanda suvarma sistemlərindən istifadə olunmuş, əkin sahələrinin məhsuldarlığı artırılmışdır. Orta əsrlər boyunca bölgədə feodal münasibətlərinin formalaşması ilə əlaqədar olaraq kənd əhalisi müxtəlif vergi və mükəlləfiyyətlər daşısa da, kənd təsərrüfatının ümumi vəziyyəti tənəzzül xarakteri daşımamışdır. Əhali torpağı əzmlə əkib-becərmiş, əkinçiliklə yanaşı bağçılıq və qismən maldarlıq təsərrüfatı da inkişaf etmişdir. Bu təsərrüfat sahələrinin qarşılıqlı əlaqəsi kənd təsərrüfatının davamlılığını təmin etmiş, bölgənin iqtisadi həyatında kənd icmalarının rolunu qoruyub saxlamışdır. Beləliklə, III-XII əsrlərdə Naxçıvanda kənd təsərrüfatı çoxəsrlik ənənələrə söykənən, əkinçiliyin aparıcı mövqe tutduğu bir təsərrüfat sistemi kimi formalaşmışdır. Bu sahə bölgənin sosial-iqtisadi inkişafında həlledici rol oynamış və Naxçıvanın Azərbaycan kənd təsərrüfatı tarixində mühüm yer tutmasını təmin etmişdir.

III-XII əsrlərdə Naxçıvan diyarında kənd təsərrüfatının əsasını əkinçilik təşkil etmiş, torpağın becərilməsi isə əsasən ənənəvi və sadə texniki vasitələr hesabına həyata keçirilmişdir. Yazılı mənbələrdə Qafqaz Albaniyasında torpağın dəmir kotanla deyil, əsasən ağacdan hazırlanmış xış vasitəsilə şumlandığı göstərildiyi kimi, bu əkinçilik praktikası Naxçıvan üçün də səciyyəvi olmuşdur. Arxeoloji materialların və orta əsr mənbələrinin təhlili göstərir ki, bölgənin təbii-coğrafi şəraiti, xüsusilə dağətəyi və düzənlik sahələrin genişliyi taxta xışın tətbiqi üçün əlverişli olmuş, şumlama əsasən öküz və ya at qoşqusu ilə aparılmışdır. Dəmir kənd təsərrüfatı alətlərinin məhdud yayılması şəraitində ağac xış torpağın səth qatının yumşaldılması və əkin üçün hazırlanmasında mühüm rol oynamış, bu isə Naxçıvanda erkən orta əsrlər əkinçilik mədəniyyətinin Albaniya təsərrüfat ənənələri ilə ortaq cəhətlərini aydın şəkildə əks etdirmişdir [Əliyarov, Mahmudov, 1989: 17].

Naxçıvanın müxtəlif təbii zonalarında yayılmış torpaq tipləri kənd təsərrüfatının istiqamətini müəyyənləşdirən əsas amillərdən biri olmuşdur. Dağlıq və dağətəyi ərazilərdə geniş yayılan şabalıdı və dağ-şabalıdı torpaqlar III-XII əsrlərdə əsasən dəmyə əkinçilik və otlaq təsərrüfatı üçün istifadə edilmiş, bu zonalarda taxılçılıqla yanaşı maldarlıq aparıcı mövqe tutmuşdur. Açıq şabalıdı torpaqların üstünlük təşkil etdiyi sahələrdə taxılçılıq və üzümçülük daha geniş yayılmış, suvarma imkanlarının mövcud olduğu dağətəyi düzənliklərdə isə əkinçilik və bağçılıq inkişaf etmişdir. Ovalıq zonalarda, xüsusilə Arazboyu düzənliklərdə yayılan boz, boz-qonur və boz-çəmən torpaqlar suvarma sistemlərinin tətbiqi nəticəsində yüksək məhsuldarlığı ilə seçilmişdir. Orta əsr müəlliflərinin məlumatları, o cümlədən Əbdürrəşid əl-Bəküvinin qeydləri Naxçıvanın məhsuldar torpaqlara, bol su ehtiyatlarına və inkişaf etmiş bağ-bostanlara malik olduğunu təsdiqləyir ki, bu da bölgədə kənd təsərrüfatının davamlı inkişafını şərtləndirən əsas amillərdən biri olmuşdur [Bakuvi, 1992: 132].

Bu məlumatlar göstərir ki, hələ orta əsrlərdə Naxçıvanın münbit torpaqları və əlverişli təbii şəraiti əhalinin gündəlik dolanışığını təmin etməklə yanaşı, kənd təsərrüfatının, xüsusilə bağçılıq, bostançılıq və üzümçülük sahələrinin davamlı inkişafına şərait yaratmışdır. Torpaq-iqlim amillərinin düzgün və məqsədyönlü şəkildə istifadəsi III-XII əsrlərdə Naxçıvan kənd təsərrüfatının bölgənin sosial-iqtisadi həyatında aparıcı mövqe tutmasını təmin etmişdir. III-XII əsrlərdə Naxçıvanda təsərrüfat həyatının əsas sahələrini əkinçilik, maldarlıq, bağçılıq və bostançılıq təşkil etmişdir. Əkinçilik kənd təsərrüfatının aparıcı istiqaməti kimi buğda, arpa və darı kimi taxıl bitkilərinin becərilməsinə əsaslanırdı. Əlverişli iqlim şəraiti, münbit torpaq örtüyü və erkən dövrlərdən mövcud olmuş süni suvarma sistemləri arxlar və qanovlar əkin sahələrinin məhsuldarlığının artmasına şərait yaratmışdır [Mame-

dov, 1977: 283]. Burada istifadə olunan suvarma üsulları orta əsr kənd təsərrüfatının maddi-texniki bazasının formalaşmasında mühüm rol oynamışdır.

Naxçıvan ərazisinin ən qədim insan və sivilizasiya məskənlərindən biri olması bölgədə təsərrüfat mədəniyyətinin erkən mərhələlərdən formalaşdığını arxeoloji materiallar əsasında sübut edir. Kültəpə yaşayış yerində aparılmış arxeoloji qazıntılar zamanı aşkar edilmiş çaxmaqdaşından hazırlanmış əmək alətləri, dən daşları, sürtgəclər, həvəngdəstələr, baltalar və çəkiclər əhalinin əkinçilik və qida istehsalı ilə sıx məşğul olduğunu göstərir [Həbibullayev, 1959, s. 32]. Bu tapıntılar Naxçıvanda oturaq həyat tərzinin və kənd təsərrüfatına əsaslanan təsərrüfat sisteminin qədim köklərə malik olduğunu təsdiqləyir. Muxtar respublika ərazisində aparılan arxeoloji tədqiqatlar nəticəsində əldə edilmiş daşyonma sənətinə aid əmək alətləri hazırda müxtəlif muzeylərdə qorunub saxlanılır. Naxçıvan şəhərindəki Dövlət Tarix Muzeyində nümayiş etdirilən e. ə. II minilliyə aid daş gürzlər, həvəngdəstələr, kirkirələr, dən daşları və digər nümunələr bu ərazidə kənd təsərrüfatı məhsullarının emalının geniş yayılmış olduğunu göstərir. Bu maddi-mədəniyyət nümunələri əhalinin buğdanın, duzun və digər məhsulların emalı üçün daş alətlərdən geniş istifadə etdiyini sübut edir. Xüsusilə həvəngdəstələr və “dibək daşı” adlandırılan daş avadanlıqlar taxılın, duzun və müxtəlif bitki məhsullarının əzilməsi üçün əsas vasitələrdən olmuşdur. Naxçıvan ərazisində, o cümlədən duz mədənlərində aşkar edilmiş daş çəkiclər bu alətlərin geniş funksional istifadə dairəsinə malik olduğunu göstərir [Həvilov, 1993: 67]. Culfa və Şahbuz rayonları ərazisində aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmiş çoxsaylı dən daşları bölgədə taxılçılığın və kənd təsərrüfatı məhsullarının ilkin emalının qədim dövrlərdən etibarən mühüm yer tutduğunu aydın şəkildə sübut edir. Bu tapıntılar əkinçilik fəaliyyətinin yalnız istehsal mərhələsi ilə məhdudlaşmadığını, eyni zamanda məhsulun emalı və gündəlik məişətdə istifadəsi üçün xüsusi əmək alətlərinin formalaşdığını göstərir. Məlum olduğu kimi, dən daşları taxılın un halına salınmasında əsas vasitələrdən biri olmuş və bu alətlərin kütləvi şəkildə aşkar edilməsi əhalinin oturaq həyat tərzi sürdüyünü, əkinçilik mədəniyyətinin isə kifayət qədər inkişaf etdiyini təsdiqləyir [Baxşəliyev, Novruzlu, 1992: 6, 11, 12].

Arxeoloji materiallar arasında xüsusi yer tutan kirkirə daşları kənd təsərrüfatı məhsullarının, xüsusilə taxılın emalında istifadə edilən əsas əmək alətlərindən biri kimi səciyyələnir. Bu daşlar adətən iki əsas hissədən – alt və üst daşdan ibarət olub, dairəvi formaya malik idi. Alt daş sabit vəziyyətdə yerləşdirilir, üst daş isə ortasındakı deşik vasitəsilə tökülən taxılın üyüdülməsi üçün hərəkətə gətirilirdi. Üst daşa birləşdirilmiş dəstəyin köməyi ilə fırladılan bu daş mexanizmi sadə quruluşa malik olmasına baxmayaraq, olduqca funksional və səmərəli olmuşdur. Kirkirələrin konstruktiv xüsusiyyətlərinin və istifadə prinsipinin minilliklər ərzində ciddi dəyişikliklərə məruz qalmaması onların praktik üstünlüklərindən və kənd təsərrüfatı fəaliyyətindəki əvəzsiz rolundan irəli gəlirdi [Hacıyeva, 2013: 41]. Bu tip əmək alətlərinin tarixi Eneolit dövrünə qədər gedib çıxır və onlar Cənubi Qafqaz tayfalarının təsərrüfat həyatında mühüm yer tutmuşdur. Eneolit dövründən başlayaraq əkinçilik təsərrüfatının formalaşması və inkişafı daş əmək alətlərinin, o cümlədən kirkirə və dən daşlarının geniş yayılması ilə müşayiət olunmuşdur. Tunc dövründə isə bu alətlərin istifadəsi daha da intensivləşmiş, taxılçılığın kənd təsərrüfatının aparıcı sahələrindən birinə çevrildiyini göstərmişdir [Əliyev, 1977: 91].

Mənbələrin verdiyi məlumatlara əsasən, bu tip daş əmək alətlərinə təkcə Naxçıvan ərazisində deyil, ümumilikdə Cənubi Qafqaz və Yaxın Şərq bölgələrinin arxeoloji abidələrində də rast gəlinir. Bu fakt kənd təsərrüfatı mədəniyyətinin regional xarakter daşıdığını, eyni zamanda müxtəlif coğrafi məkanlar arasında təsərrüfat təcrübəsinin və texnoloji biliklərin qarşılıqlı təsir və əlaqə şəraitində formalaşdığını göstərir. Xüsusilə Orta əsr yazılı mənbələri və səyahətnamələr bu cür əmək alətlərinin geniş yayılmasını təsdiqləyərək, əkinçilik və taxıl emalının gündəlik həyatın ayrılmaz tərkib hissəsi olduğunu ortaya qoyur [Будовниц, 1939].

Beləliklə, Culfa və Şahbuz ərazisində aşkar edilmiş dən daşları və kirkirə tipli əmək alətləri Naxçıvan diyarında əkinçiliyin, xüsusilə taxılçılığın qədim və davamlı təsərrüfat ənənəsinə malik olduğunu göstərir. Eneolit və Tunc dövrlərindən etibarən formalaşmış bu istehsal və emal texnologi-

yaları sonrakı əsrlərdə, o cümlədən III-XII əsrlərdə də öz əhəmiyyətini qoruyub saxlamışdır. Arxeoloji tapıntılarla yazılı mənbələrin verdiyi məlumatların qarşılıqlı şəkildə tamamlanması sübut edir ki, orta əsrlər dövründə Naxçıvan əhalisi yalnız taxıl istehsalı ilə kifayətlənməmiş, eyni zamanda məhsulun emalı üçün səmərəli və funksional əmək alətlərindən geniş istifadə etmişdir. Bu isə bölgədə oturaq həyat tərzinin möhkəmləndiyini, kənd təsərrüfatı mədəniyyətinin yüksələn xətt üzrə inkişaf etdiyini və Naxçıvanın Cənubi Qafqazın aparıcı əkinçilik mərkəzlərindən biri kimi formalaşdığını elmi əsaslarla təsdiq edir.

Naxçıvanın əlverişli təbii-coğrafi şəraiti və erkən dövrlərdən formalaşmış süni suvarma sistemləri müxtəlif kənd təsərrüfatı bitkilərinin becərilməsinə geniş imkan yaratmışdır. Əkinçilik sahəsində əsasən **taxılçılıq** üstünlük təşkil etmiş, buğda və arpa başlıca ərzaq bitkiləri kimi geniş şəkildə əkilmişdir. Mənbələr bu məhsulların yalnız yerli istehlak üçün deyil, həm də ehtiyat məqsədilə istehsal edildiyini göstərir. Taxılçılıqla yanaşı, **paxlalı bitkilər** (noxud, mərcimək) və **texniki bitkilər** (kətan) də əkin sahələrində mühüm yer tutmuşdur. Eyni zamanda **bağçılıq və bostançılıq** inkişaf etmiş, üzüm, nar, alma, armud kimi meyvələr, eləcə də qarpız və yemiş kimi bostan bitkiləri geniş yayılmışdır. Xüsusilə üzümçülükdən əldə edilən məhsullar, o cümlədən şərabçılıq üçün xammal, bölgənin iqtisadi həyatında mühüm rol oynamışdır. Bu ümumi əkinçilik sistemi daxilində **pambıqçılıq** da mühüm yer tutmuşdur. III-XII əsrlərdə Naxçıvanın isti iqlimi və süni suvarma imkanları pambıq bitkisinin becərilməsi üçün əlverişli şərait yaratmışdır. Yazılı mənbələr və arxeoloji tapıntılar pambığın əsasən yerli toxuculuq və məişət tələbatının ödənilməsində istifadə edildiyini göstərir. Pambıq xammalı əsasında iplik hazırlanması erkən orta əsrlərdə bölgədə sənətkarlığın, xüsusilə toxuculuğun inkişafına təkan vermişdir [Qasımlı, 2013: 99].

**Suvarma və maldarlıq sistemləri (III-XII əsrlər).** III-XII əsrlərdə Naxçıvan diyarında əkinçiliklə məşğul olan əhali süni suvarma üsullarını mənimsəmiş və əsasən çayların, arx və kanalların yaxınlığında yerləşən münbit torpaq sahələrində məhsul əkib-becərmişdir. III-XI əsrlərdə Naxçıvan diyarında əkin sahələrinin seçilməsi torpağın yararlılıq dərəcəsinə, təbii-coğrafi şəraitə və su təminatına uyğun olaraq həyata keçirilirdi. Əkin üçün istifadə olunan torpaqlar ya süni, ya da təbii yolla suvarılırdı ki, bu da bölgənin iqlim xüsusiyyətləri, relyef quruluşu, çay şəbəkəsinin mövcudluğu və əhalinin suvarma sahəsində formalaşmış təsərrüfat təcrübəsi ilə sıx bağlı idi. Süni suvarma üsulları əsasən arxlar, kanallar və su bölüşdürmə qurğuları vasitəsilə həyata keçirilmiş, bu sistemlər əkin dövriyyəsində su təminatının davamlılığını qorumaqla yanaşı məhsuldarlığın yüksəlməsində mühüm rol oynamışdır. Təbii suvarma isə əsasən yağıntılara, çay daşqınlarına və yeraltı su ehtiyatlarına əsaslanmış, xüsusilə dağlıq və dağətəyi zonalarda dəmyə əkinçilik geniş yayılmışdır. Antik və orta əsr şəhərlərinin təsərrüfat həyatı ilə bağlı aparılan tədqiqatlarda da göstərildiyi kimi, süni və təbii suvarma üsullarının tətbiqi mədəniyyətlərin yerləşdiyi iqlim şəraiti, relyef xüsusiyyətləri və xalqların bu sahədəki inkişaf səviyyəsi ilə birbaşa bağlı olmuşdur [Baxşəliyev, 2005: 92-93].

Naxçıvanın mürəkkəb relyefə düzənlik, dağətəyi və dağlıq sahələrə malik olması əkinçilik və maldarlıq sahələrinin də təbii-coğrafi şəraitə uyğun şəkildə formalaşmasına imkan yaratmışdır. Belə ki, düzənlik ərazilərdə əsasən süni suvarma əkinçiliyi, dağlıq zonalarda isə dəmyə üsulu ilə məhsul yetişdirilməsi ənənəvi xarakter daşımışdır [Quliyev, 1985, s. 27].

Tədqiqatlarda göstərildiyi kimi, Naxçıvanda suvarma əkinçiliyinin əsasını arxlar, kanallar və təbii su mənbələrindən yönəldilən su xətləri təşkil etmişdir. Bu sistemlər hələ erkən orta əsrlərdə formalaşaraq kənd təsərrüfatının dayanıqlı inkişafına şərait yaratmışdır. Qeyd edilməlidir ki, orta əsrlərdə süni suvarma imkanları əsasən düzənlik və çayətrafı sahələri əhatə etmiş, diyarın bütün ərazisini tam əhatə etməmişdir [Hacıyev, 2013: 296]. Naxçıvan diyarının əlverişli təbii-coğrafi xüsusiyyətləri, geniş otlaq sahələrinin mövcudluğu və su mənbələrinə yaxınlıq maldarlığın inkişafı üçün də mühüm zəmin yaratmışdır. Maldarlıq əkinçiliklə paralel şəkildə təsərrüfatın aparıcı sahələrindən biri olmuş, ərazi həm yaylaq, həm də qışlaq kimi istifadə edilən otlaq sahələrinə malik olmuşdur [Qasımlı,

2010: 168]. Maldarlığın əsas istiqamətlərini qoyunçuluq, iribuynuzlu maldarlıq və atçılıq təşkil etmiş, əlavə olaraq keçi, dəvə, qatır və ulaq saxlanılması da geniş yayılmışdır.

Arxeoloji tədqiqatlar zamanı aşkar olunan ev heyvanı qalıqları, at və qoç fiqurları, eləcə də maldarlıqla bağlı maddi-mədəniyyət nümunələri bu sahənin Naxçıvanda qədimdən formalaşdığını sübut edir. Eneolit və Erkən Tunc dövrlərindən etibarən əhali ev heyvanlarını əhliləşdirmiş, onları əsasən ət, süd, yun və nəqliyyat məqsədləri üçün saxlamışdır. İkinci Kültəpə, Ovçulartəpə, Sirab kimi yaşayış yerlərində aparılan arxeoloji qazıntılar maldarlığın təkamül mərhələlərini izləməyə imkan verir [Baxşəliyev, 2008: 23].

Erkən orta əsrlərdə köçəri və yarımköçəri maldarlıq formaları geniş yayılmış, yaylaq-qışlaq sistemi təsərrüfatın əsas təşkilati modelinə çevrilmişdir. Lakin otlaq sahələrinin əsasən dövlət mülkiyyətində olması maldarların onları icarə əsasında istifadə etməsinə səbəb olmuş, bu isə sosial-iqtisadi münasibətlərə təsir göstərmişdir [Qasımlı, 2010: 168]. Maldarlıq məhsulları ət, süd, yağ, yun, göndəri əhalinin gündəlik tələbatını ödəməklə yanaşı, daxili mübadilə və ticarətdə də mühüm yer tutmuşdur. Dəvəçilik də Naxçıvanda maldarlığın xüsusi sahələrindən biri olmuşdur. Dəvələr həm təsərrüfat ehtiyacları, həm də erkən orta əsrlərdə karvan ticarətində nəqliyyat vasitəsi kimi istifadə edilmişdir. Arxeoloji qazıntılar zamanı Naxçıvanın Sədərək və Püsyan ərazilərində erkən orta əsrlərə aid mədəni təbəqələrdə tapılmış dəvə sümükləri bu faktı təsdiqləyir [Qasımlı, 2010: 170]. Bu, Naxçıvanın regional ticarət yollarında mühüm mövqeyə malik olduğunu göstərən maddi sübutlardan biridir. Beləliklə, III-XII əsrlərdə Naxçıvanda əkinçilik və maldarlıq bir-birini tamamlayan təsərrüfat sahələri kimi formalaşmış, təbii-coğrafi şəraitə uyğun şəkildə inkişaf etmişdir. Süni suvarma sistemləri əkinçiliyin, geniş otlaq sahələri isə maldarlığın davamlılığını təmin etmiş, bu iki sahə bölgə əhalisinin sosial rifahının və iqtisadi dayanıqlığının əsasını təşkil etmişdir.

**NƏTİCƏ**

Aparılmış tədqiqatlar göstərir ki, Naxçıvan ərazisi III-XII əsrlər dövründə kənd təsərrüfatının, xüsusilə əkinçilik və maldarlığın inkişaf etmiş mərkəzlərindən biri olmuşdur. Arxeoloji tapıntılar dən daşları, kirkirələr və digər əmək alətləri və yazılı mənbələr göstərir ki, əhali yalnız taxıl yetişdirməklə kifayətlənməyib, eyni zamanda məhsulun emalı üçün səmərəli texnologiyalardan istifadə etmişdir. Bu alətlərin Eneolit dövründən etibarən formalaşması və orta əsrlərdə istifadəsinin davam etməsi bölgədə oturaq həyat tərzinin möhkəmlənməsini, kənd təsərrüfatı mədəniyyətinin yüksək səviyyədə inkişafını sübut edir. Eyni zamanda, məlumatlar göstərir ki, bu təsərrüfat texnologiyaları təkcə Naxçıvanda deyil, ümumilikdə Cənubi Qafqaz və Yaxın Şərqdə də yayılmışdır, bu da regional iqtisadi və mədəni əlaqələrin inkişafına işarə edir. Nəticə etibarilə, Naxçıvan ərazisi tarixi və mədəni baxımdan Cənubi Qafqazın mühüm kənd təsərrüfatı mərkəzlərindən biri kimi qiymətləndirilə bilər, burada əkinçilik və maldarlıq sosial-iqtisadi həyatın əsas sahələrindən biri olmuşdur.

## ƏDƏBİYYAT

Bakuvi, Ə. (1992). *Kitab təlxis əl-asar və əcaib əl-məlik əl-qəhhar (“Abidələrin” xülasəsi və qüdrətli hökmdarın möcüzələri)*. Şur.

Baxşəliyev, Ə.Ə. (2005). *Antik və orta əsrlər dövrü Bərdə şəhərinin tarixi*. Elm.

Baxşəliyev, V.B. (2008). *Naxçıvanın arxeoloji abidələri*. Elm.

Baxşəliyev, V., & Novruzlu, Ə. (1992). *Şahbuz bölgəsinin arxeoloji abidələri*. Elm.

Bünyadov, T.Ə. (1964). *Azərbaycanda əkinçiliyin inkişaf tarixinə dair*. Azərbaycan SSR EA nəşriyyatı.

Əliyarov, S., & Mahmudov, Y. (1989). *Azərbaycan tarixi üzrə qaynaqlar*. BDU.

Əliyev, V. (1977). *Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti*. Elm.

Hacıyeva, S. (2013). *Naxçıvanın xatirə abidələri üzərindəki təsvirlər tarix-mədəniyyət abidəsi kimi (Naxçıvan materialları əsasında).* Elm və Təhsil.

Həbibullayev, O. (1959). *Kültəpədə arxeoloji qazıntılar*. Azərbaycan SSR EA nəşriyyatı.

Həvilov, H. (1993). *Martda mərək*. Azərnəşr.

Hacıyev I.M. et al (Red.). (2013). *Naxçıvan tarixi* (3 cilddə, 1-ci cild). Əcəmi.

Qasımlı, V. (2010). İlk orta əsrlərdə Naxçıvanda maldarlıq təsərrüfatı. *Bakı Universiteti Xəbərləri*, 4, 167-171.

Qasımlı, V.A. (2013). *Naxçıvan III-IX əsrlərdə*. Elm.

Quliyev, Ş. (1985). Naxçıvanda ənənəvi suvarma əkinçiliyi. *AMEA Xəbərləri*, 5 buraxılış, 18-47.

Будовниц И.У. (1939). *Путешествие ибн Фадлана на Волгу*. Издательство Академии Наук СССР.

Мамедов, С. (1977). *Исторические связи азербайджанского и армянского народов во второй половине XVII – первой трети XVIII в.* Elm.

*(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 15.05.2026**
**Son variant 11.06.2026**